# Dövlətçiliyin və qanunçuluğun keşiyində

***Bir əsrdən artıq çətin və şərəfli inkişaf yolu keçən Azərbaycan Prokurorluğu dövlət müstəqilliyi illərində müasir dövrün tələblərinə və demokratik prinsiplərinə uyğun sivil təsisata çevrilmişdir.***



Azərbaycanda milli prokurorluq orqanlarının təsis edilməsi müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk dövründə baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti 28 may 1918-ci ildə İstiqlal Bəyannaməsini qəbul edərək müstəqilliyini elan etməklə Şərqdə ilk demokratik dövlətin əsaslarını yaratmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsində həyata keçirdiyi ən vacib məsələlərdən biri hüquq sisteminin qurulması və məhkəmə-istintaq orqanlarının formalaşdırılması olmuşdur. Yaranması, fəaliyyəti və inkişafı, bütövlükdə, Azərbaycan xalqının və dövlətinin keçdiyi şərəfli inkişaf yolu ilə sıx bağlı və ayrılmaz olan Azərbaycan Prokurorluğu da Azərbaycan Xalq Cümhuriyyəti ilə birlikdə 103 illiyini qeyd edir.

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində yaradılmaqla əsası qoyulmuş milli prokurorluq məhkəmə orqanları sistemində fəaliyyət göstərib. Məhz bu mühüm hadisəni nəzərə alaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hər il oktyabr ayının 1-nin Azərbaycanda prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair 17 iyul 1998-ci il tarixli sərəncam imzalamaqla bu əlamətdar tarixi əbədiləşdirib.

1918-ci il noyabrın 14-də Azərbaycan Demokratik Respublikasının Nazirlər Şurası "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə"ni təsdiq edib. Əsasnamənin təsdiqi ilə Bakı şəhərində Azərbaycan Məhkəmə Palatası təsis edilərək, onun daxili strukturu və səlahiyyətləri müəyyən edilib. Azərbaycan Məhkəmə Palatası yanında prokuror nəzarətini həyata keçirən prokuror və onun müavinləri cinayət prosesində ittihamın müdafiə edilməsi və məhkəmə orqanlarında qanunların tətbiqinə nəzarət funksiyalarını həyata keçirirdilər. Sovetlər dönəminin ilk dövrlərində Azərbaycanda prokurorluq orqanları mövcud olmayıb və bu təsisatın həyata keçirməli olduğu fəaliyyət, qanunların icrasına nəzarət Xalq Ədliyyə Komissarlığı, İnqilab komitələri, Fəhlə–kəndli müfəttişlikləri və digər hakimiyyət orqanları tərəfindən yerinə yetirilib.

1922-ci il iyulun 11-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" dekret ilə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının tərkibində sovet prokurorluğu orqanı yaradılıb. 1930-cu il avqustun 8-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarı ilə təsdiq edilmiş "Azərbaycan SSR Prokurorluğu haqqında Əsasnamə" ilə prokurorluq Xalq Ədliyyə Komissarlığının ləğv edilməsilə əlaqədar olaraq birbaşa Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə tabeliyinə verilib.

1936-cı ildən başlayaraq, SSRİ dövlətində prokurorluq sisteminin daha ciddi mərkəzləşdirilməsi prosesi həyata keçirilib. Bu proses SSRİ-nin 1936-cı il və Azərbaycan SSR-nin 1937-ci il konstitusiyaları əsasında həyata keçirilib. 1955-ci il may ayının 24-də qəbul edilmiş SSRİ-də prokuror nəzarəti haqqında əsasnamədə prokuror nəzarətinin əsas təyinatının qanunçuluğun dönmədən təmin edilməsindən ibarət olunmaqla vəzifə və səlahiyyətləri, prokuror təsiri vasitələrinin növləri müəyyən edilib.

SSRİ Ali Sovetinin 1979-cu il dekabr ayının 30-da keçirilmiş sessiyasında qəbul edilmiş "SSRİ Prokurorluğu haqqında" Qanun 1955-ci ilin əsasnaməsindən fərqli olaraq prokuror nəzarəti fəaliyyətini daha dəqiq tənzim edib.

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı və SSRİ Prokurorluğunun tərkib hissəsi kimi uzunmüddətli və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın milli prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən uzaqgörən və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulub, normal fəaliyyəti üçün mütərəqqi normativ-hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil təsisata çevrilib.

Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında 1998-ci il noyabrın 28-də keçirilmiş Azərbaycan Prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən ulu öndər deyib: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər".

Ulu öndərin həmin müşavirədə prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaradıb.

Heydər Əliyevin ədalətə, humanizmə və insanpərvərliyə söykənən məhkəmə-hüquq islahatları son 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib.

2008-ci ildə prokurorluq orqanlarının yaradılmasının 90 illik yubileyi münasibətilə dövlət başçısı prokurorluğun fəaliyyətinə böyük qayğı göstərərək, prokurorluq əməkdaşlarını və veteranları təbrik etməklə bu dövlət qurumunda həyata keçirilən işləri yüksək qiymətləndirmişdir. Prezident son illərdə prokurorluqda sağlam mühitin yaradılması üçün ciddi işlər görüldüyünü, dövlətçilik, qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi prinsiplərinin ön plana çəkildiyini, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığını və onun nüfuzunun yüksəldiyini, prokurorların cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq göstərdiklərini, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafındakı əhəmiyyətli xidmətlərini qeyd edib.

Azərbaycan Respublikasında müasir dövrün tələblərinə uyğun olaraq yeni keyfiyyət müstəvisində reallaşdırılan dövlət gənclər siyasəti çərçivəsində prokurorluq orqanlarına işə qəbulun müsabiqə yolu ilə aparılması prokurorluğun kadr tərkibinin hərtərəfli savadlı və yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvərliyi və dövlətçilik ideyalarına sədaqəti ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, dövlət başçısı cənab İlham Əliyevin ölkə həyatının bütün sahələrində gənclərin əməyindən daha geniş istifadə olunmasına dair verdiyi tapşırıqların icrası istiqamətində mühüm vasitə olub.

Prokurorluq orqanlarının müasir məzmunda yeniləşməsi işində dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsinin müstəsna əhəmiyyəti olub. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramının icrası vətəndaş cəmiyyətində prokurorluğun rolunun artırılmasına, prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə və yüksək beynəlxalq standartlara uyğun yeni keyfiyyət müstəvisinə keçməsinə xüsusi zəmin yaradıb.

Prezident İlham Əliyevin hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi ilə həyata keçirilən mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmizdə sabitlik və qanunçuluq bərqərar olunub, Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib. Buna adekvat olaraq, prokurorluq orqanlarının üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüş yaradılmışdır.

2020-ci il mayın 1-də Prezident İlham Əliyevin Kamran Əliyevi baş prokuror vəzifəsinə təyin edilməsi ilə əlaqədar videoformatda qəbulu zamanı bu mühüm dövlət qurumuna korrupsiyaya qarşı mübarizədə daha fəal iş görülməsini, struktur və kadr islahatları aparmaqla yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşdırılmasını tövsiyə etməsi prokurorluq orqanlarında cari islahatların ilkin mərhələsinin təməlini qoymuşdur.

2020-ci il mayın 12-də Baş Prokurorluqda video-konfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilərək, "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair tövsiyələrinin icrası üzrə 2020-ci il üçün Fəaliyyət Planı" təsdiq olunmuş, prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatlarının həyata keçirilməsinə başlanılmış, şəffaf prosedurlara və ədalətli meyarlara əsaslanan islahatların reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Aparılan islahatlar çərçivəsində prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvatlaşdırılması işində çevikliyin və səmərəliliyin artırılması, o cümlədən müasir dövrün tələblərinə cavab verən peşəkar dövlət təsisatı kimi yenidən formalaşdırılması məqsədilə Prezident cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir. Qurumun strukturu qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla mahiyyətcə tamamilə yenidən formalaşdırılmış, daha çevik, mobil və dinamik idarəetmə qabiliyyətli idarələr yaradılaraq struktur qurumların sayı 15-dən 18-ə çatdırılmışdır. Bununla yanaşı, idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə baş prokurorun əlavə müavini vəzifəsi təsis edilmişdir.

Azərbaycan Respublikası baş prokurorunun müvafiq əmri ilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun da yeni strukturu təsdiq olunmuş, Respublika Hərbi prokurorunun əlavə müavini vəzifəsi təsis edilmiş, kriminalistika şöbəsi ilə informasiya-kommunikasiya texnologiyaları şöbəsi birləşdirilərək Kriminalistika və informasiya texnologiyaları idarəsi yaradılmış, bəzi şöbələr ləğv edilərək onların bazasında yeni idarə və şöbələr, o cümlədən Hərbi təsisatlarda təhqiqata nəzarət və cinayət təqibindən kənar icraatlar idarəsi, Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi, Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsi, Təşkilat və icraya nəzarət şöbəsi yaradılmışdır.

Son illərdə Hərbi Prokurorluq orqanları Silahlı Qüvvələrdə cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində üzərinə düşən vəzifələri yerinə yetirməklə, orduda nizam-intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin və digər neqativ halların qarşısının alınması, ordu quruculuğuna mənfi təsir edən qanun pozuntularının və nöqsanların, cinayətkarlığı doğuran səbəb və şəraitin aradan qaldırılması istiqamətində məqsədyönlü qabaqlayıcı tədbirlərin görülməsini təmin edib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mühüm strukturlarından olan Hərbi Prokurorluq orqanları öz fəaliyyətində daim ulu öndərimizin hüquqi dövlət və vətəndaş quruculuğu ilə bağlı ali ideyalarını rəhbər tutmaqla, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini lazımi səviyyədə həyata keçirməyə, Silahlı Qüvvələrdə və qanunvericiliyə uyğun yaradılmış başqa silahlı birləşmələrdə qanunçuluğun, nizam-intizamın tam bərqərar olmasına çalışır. Hərbi Prokurorluğun fəaliyyətinin əsas qayəsi Azərbaycan Ordusunda möhkəm intizamın mövcud olmasına tam nail olmaq, hərbi cinayətlərə qarşı mübarizəni daha da gücləndirmək, habelə cinayətkarlığa qarşı preventiv tədbirlər həyata keçirmək, hərbi qulluqçuların hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin etməkdir. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq ölkədə hərbi cinayətlərin – fərariliyin, hərbi xidmətdən yayınma hallarının və hərbi xidmət əleyhinə olan digər cinayətlərin sayı ildən-ilə azalır.

27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Silahlı Qüvvələrimizin mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması ordumuzu mənfur düşmənin layiqli cavabını verməyə vadar etdi. Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi. Beləliklə ikinci Qarabağ müharibəsi başladı. Böyükdən kiçiyə hər kəs Vətən müharibəsinin qələbə ilə başa çatmasını qarşıya məqsəd qoydu. Dövlət başçısı cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək mülki vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə isə böyük ruh yüksəkliyi yaratdı. Müharibənin gedişində xalqımız məqsəddə amal uğrunda birləşməyin, güclü "Dəmir yumruğa" çevrilməyin yeni nümunəsini yaratdı. Xalqımızın hər bir vətəndaşı öz dəstəyi ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin arxasında olduğunu göstərdi. Müxtəlif dövlət qurumları, eləcə də prokurorluq, o cümlədən hərbi prokurorluq, idarə və təşkilatlar, ayrı-ayrı vətəndaşlar, hətta xarici ölkələrdə yaşayan soydaşlarımız da xalqımıza, ordumuza həm mənəvi dəstək olur, həm də maddi kömək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edirdilər.

Ermənistanın törətdiyi növbəti təxribatların qarşısını almaq məqsədilə əks-hücum əməliyyatı zamanı gedən 44 günlük döyüşlərdə müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimiz öz gücünün, qüdrətinin və yüksək döyüş hazırlığının, şəxsi heyətin peşəkarlığının və qəhrəmanlığının əyani sübutu kimi, Ermənistan silahlı qüvvələrini məhv etdi.

Qürur hissi ilə qeyd etmək lazımdır ki, Vətən müharibəsi zamanı prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarının əməkdaşları, istər xidmət yerində, istərsə də ezam olunduqları müvafiq ərazilərdə həm xidməti vəzifələrinin icrası ilə bağlı, həm də vicdanlı bir vətəndaş kimi üzərlərinə düşənləri layiqincə yerinə yetirmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İşğaldan azad olunmuş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" 1 aprel 2021-ci il tarixli sərəncam imzalanmışdır. Həmin sərəncama əsasən Qubadlı və Kəlbəcər hərbi prokurorluqları yaradılmışdır. Həmçinin Qarabağ Hərbi Prokurorluğu əsasında Ağdam Hərbi Prokurorluğu təşkil olunmuşdur. Bu yaxınlarda, Baş prokuror Kamran Əliyevin müvafiq əmrləri ilə qeyd olunan hərbi prokurorluqların struktur və ştat tərkibi müəyyən edilərək fəaliyyətə başlamışdır.

Prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminat məsələləri dövlətimizin daim diqqət mərkəzindədir. Yeni yaradılmış hərbi prokurorluqların maddi-texniki bazasının möhkəmləndirilməsi, əməkdaşlarımızın maddi-sosial təminatının və iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Prokurorluq orqanları əməkdaşları ulu öndərimiz tərəfindən əsası qoyulmuş ənənənin sadiq davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin diqqətini, qayğısını və dəstəyini daim görür və hiss edirlər. Prokurorluq orqanlarında aparılan islahatlar, fəaliyyətimizlə bağlı qəbul edilmiş yeni qanunlar və digər qanunvericilik aktları bizi daha fəal və səmərəli çalışmağa, qanunların aliliyinin təmin edilməsi uğrunda daha barışmaz və prinsipial mübarizə aparmağa ruhlandırır.

***Mahir BAYRAMOV,***
***Kəlbəcər hərbi prokuroru vəzifəsini icra edən, ədliyyə polkovnik – leytenantı***